

ÜLVİ SƏMAZƏN

# AĞLAMA, QADIN

Ağlama, qadın,
Yanma mənim halıma,
Mən hicranın özüyəm,
kədərə tən adamam,
Hisslərini batırma,
dərdimin çirkabına.
Mən bir gündə min dəfə
ölüb gedən adamam.
Ağlama, qadın..
Göz yaşına dünya dəyməz,
Ağlama.
Danış, qadın,
Belə sakit, belə dinməz ağlama.
Göz yaşını batırma
dərdimin çirkabına..
Ağlama, qadın..
Axı sənin içində
böyük bir dünya yatır,
Dünya boyda xoşbəxtliyi
gəl özünə yük etmə,
Bu qocaman dünya
özü elə sən boydadır.
Ağlama, qadın,
Tanrı Nuhu bir də
göndərməyəcək bizə,
Ağlama,
Göz yaşında boğularıq,
ölərik,
Sən tanrının
şeir yazmasının sübutusan
bilirsənmi?!
Sən tanrının şeirisən,
Görürsənmi?!
Gerçək bu ki,
ən möhtəşəm şair Tanrı özü imiş.
Bəlkə elə
qadın özü Tanrının bir üzü imiş.
Gerçək bu ki,
"Tanrı cənnəti
yer üzündə görməyimiz üçün
göndırmişdi bizə səni"
İndi qoyma,
izn vermə bəndələri
zərrə-zərrə üzə səni.
Ağlama, qadın
Mən hələ də inanmıram
Tanrının Həvvanı
Adəmin qabırğasından yaratmasına,
Əslində
qadınların ayağı altında imiş
Adəmin qovulduğu cənnət.
Ağlama, qadın,
göz yaşına dünya dəyməz
Ağlama
hislərini batırma
dərdimin çirkabına.

# SAİLƏ

Bir qadın var uzaqda,
Yorğun,
Kimsəsiz,
Evinin tavanı yox,
Donur iki körpəsi...
Bir qadın var uzaqda
ayağının altını xatirələr əzir ee...
Bir qadın var uzaqda,
İkicə körpəsinə
bir loxma çörək üçün,
Küçə-küçə gəzir ee...
Bir qadın var, əri şəhid,

oğlu körpə, qızı xəstə,
Duyğuları nakam ölüb,
arzuları bir qəfəsdə,
Bir qadın var qəlbi tikə-tikədi ee,
Ağrıları boyunnan da yekədi ee..
Bir qadın var yastığına yaş toxuyur,
Sol yanında tanrı ölür,
Çarpayısı yas qoxuyur...
Acizliyi gözlərində yaşa dönür,
Bənizinnən nifrət damır,
sol tərəfi daşa dönür..
Bir qadın var uzaqda
Yorğun,
Kimsəsiz,
Evinin tavanı yox,
Donur iki körpəsi...

## *XATİRƏLƏR DEYİRƏM*

Şorbası acı dadır,
tək qalan adamların,
Çayı, zəhər olur ee,
Əsas da qış ayları,
darıxmaqlar artır aa,
Tək qalmaq da dəyişir,
Lap birtəhər olur ee...
Bir də ki səhər açdı,
günəş ovur gözünü
Bunun hələ birtəhər,
yuxudan qalxması var,
Sonra da tənbəl-tənbəl
başını qaldırması,
Saçını yoluşdurub,
güzgüyə baxması var,
Hərdən sıxılması var
bu süləngi təkliyin,
Hərdən darıxması var,
Və darıxmaqda var ki,
gözlərinnən yıxılır,
əllərinə dolur ee.
Hərdən də, saçlarına
payız sığal çəkir ha..
Bir xatırla məni də,
Xatırla dünəni də,
Dünənki gecəni də,
Navalçanın səsinin,
küləklə ahəngini,
pəncərədən baxdığın,
o səssiz küçəni də,
İndi çevirilib daha
dünənlərə sevgimiz,
Dünənlərə çevirilib
bu günlərdə, əzizim,
Elə bil ki, bu gün də
bir şey çatışmır nəsə
Daha yuxularda da
dünəndən danışıram.
Xatirələr dünəni
buraxmır ki, nədənsə.
Xatirələr deyirəm,
Hərdən bir əllərimdən
yapışır anam kimi,
Hərdən də darayanda,
Saçlarımı yolur ee...
Şorbası acı dadır,
tək qalan adamların,
Çayı, zəhər olur ee,
Əsas da qış ayları,
darıxmaqlar artır aa,
Tək qalmaq da dəyişir,
Lap birtəhər olur ee...